# KEYFİYYƏTİ İDARƏETMƏ SİYASƏTİ

2014-cü ildə təsis edilmiş "FOMİNOV CONSULTİNG" MMC 14.05.2025-ci il tarixli 33 nömrəli qərar və 506 nömrəli lisenziya əsasında Azərbaycan Respublikasında fəaliyyət göstərən sistem inteqrasiyası və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış şirkətdir. Şirkət rəqəmsal transformasiya, məlumat mərkəzi həlləri, kibertəhlükəsizlik, bulud texnologiyaları, biznesin davamlılığı, texniki dəstək və idarə olunan xidmətlər üzrə kompleks həllər təqdim edir.

Şirkətin fəaliyyətinin əsas prinsipləri müştəri ehtiyaclarına fərdi yanaşma, innovativ texnologiyaların effektiv tətbiqi, informasiya təhlükəsizliyinin təmin edilməsi və davamlı inkişafın dəstəklənməsidir.

"FOMİNOV CONSULTİNG" MMC rəhbərlik, əməkdaşlar və subpodratçılar daxil olmaqla təşkilatın bütün səviyyələrində keyfiyyətin idarə olunması, informasiya təhlükəsizliyinin təmin edilməsi və davamlı təkmilləşdirmə prinsiplərinə sadiqliyini bəyan edir. Müştəri məmnunluğunun təmin edilməsi, informasiya aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının qorunması şirkətin əsas prioritetləri sırasındadır.

Şirkət fəaliyyətinə təsir göstərə biləcək risk və imkanları sistemli şəkildə müəyyən edir, qiymətləndirir və idarə edir. Risk əsaslı yanaşmanın tətbiqi təşkilatın dayanıqlılığının artırılmasına, etibarlı biznes münasibətlərinin qurulmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə və informasiya təhlükəsizliyinin təmin olunmasına xidmət edir. İnteqrəolunmuş İdarəetmə Sistemi mütəmadi olaraq nəzərdən keçirilir, ölçülür və təkmilləşdirilir.

Şirkət İnteqrəolunmuş İdarəetmə Sistemi (İMS) çərçivəsində fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə, ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi və ISO/IEC 27001:2022 İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi standartlarının tələblərinə, eləcə də digər tətbiq olunan normativ və müqavilə öhdəliklərinə uyğun şəkildə həyata keçirir.

ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi (KİS) çərçivəsində şirkət:

- Təşkilatın məqsəd və kontekstinə uyğun öhdəlik və strateji istiqamətin dəstəklənməsi;
- Keyfiyyət siyasəti məqsədlərinin müəyyən edilməsi və izlənməsi;
- Müvafiq tələblərə cavab vermək öhdəliyi;
- İdarəetmə sisteminin effektivliyini və davamlı təkmilləşdirilməsini təmin etməyi öhdəsinə götürür.

ISO/IEC 27001:2022 İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi (İTİS) çərçivəsində şirkət:

- İnformasiya aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının qorunmasını;
- İnformasiya təhlükəsizliyi risklərinin müəyyən edilməsini və idarə olunmasını;
- Qanunvericilik və digər tətbiq olunan tələblərə uyğunluğun təmin edilməsini;

- İnformasiya təhlükəsizliyi məqsədlərinin müəyyən edilməsini və sistemin davamlı təkmilləşdirilməsini təmin etməyi öhdəsinə götürür.

Bu siyasət şirkətin bütün əməkdaşları, subpodratçıları və aidiyyəti maraqlı tərəfləri üçün məcburidir və rəhbərlik tərəfindən mütəmadi olaraq nəzərdən keçirilərək aktuallığı təmin edilir.

Direktor: Aytən Mustafayeva

İmza, tarix: 17.06.2026